# VƏTƏN SİZƏ OĞUL DEDİ



***MAXE***
***Sadıqov Elgün***

Sadıqov Elgün Heydər oğlu 2000-ci il 11 yanvarda Ağdam rayonunun Sarıçoban kəndində doğulub. Kənd məktəbinin məzunu olub. Hərbi xidmətini başa vurduqdan sonra MAXE kimi hərbi hissədə sürücü olaraq çalışmağa başlayıb. 2020-ci il 27 sentyabr Vətən müharibəsində ermənilərin onun maşınını hədəfə tutması nəticəsində oktyabrın 23 də qəhrəmancasına şəhid olub.

***Xocavəndin işğaldan azad olunmasında qəhrəmancasına şəhid olub***



Əsgər Məmmədzadə Pərviz Zahid oğlu 31.07.2001-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayon Qaraxanbəyli kəndində dünyaya göz açıb.

2007-2015-ci illərdə Qaraçuq kəndində yerləşən Vilayət Mahmudov adına 9 nömrəli tam orta məktəbdə təhsil alıb. 2015-ci ildə Naxçıvan şəhərindəki Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olub. 2018-ci ildə bu liseydən məzun olaraq Bakıdakı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2020-ci ildə təhsilini yarımçıq qoyaraq hərbi xidmətə yola düşüb. 6 noyabr 2020-ci ildə Xocavəndin işğaldan azad olunmasında igidlik və mərdlik göstərərək qəhrəmancasına Şəhid olub. 19 noyabr 2020-ci ildə Qaraçuq kənd məzarlığında torpağa tapşırılıb. Əsgər Məmmədzadə Pərviz Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə ”Vətən uğrunda” və ”Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

***“Şahbaz” ləqəbli şəhidimiz***



Şahbazov Ruslan Mahir oğlu 19 iyul 1991-ci il tarixdə Tərtər rayonu Ələsgərli kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanan Ruslan, əsgər kimi xidmətini başa vurduqdan sonra XTQ kurslarına başlayıb. Kursu gizir hərbi rütbəsi ilə, müvəfəqiyyətlə başa vurub. 2016-cı ilin Aprel ayında baş verən hərbi əməliyyatların iştirakçısı olub. Qorxmazlığı, igidliyi, qoçaqlığı, cəsarəti ilə fərqləndiyinə görə döyüş yoldaşları ona ”Şahbaz” ləqəbi verib. Dəfələrlə orden və medallarla təltif edilib: ”Hərbi Xidmətlərə Görə” medalı, ”Azərbaycan Ordusunun 100 illiyi Yubiey medalı, Vətən müharibəsində ”Azərbaycan Bayrağı” Ordeni və ”Vətən uğrunda” medalı. 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Azərbaycan Respublikası ərazi bütövlüyünün bərpa edilməsi zamanı yüksək peşəkarlıq nümayiş etdirib, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərib.

29 senyabr tarixində Vətən müharibəsinin Talış kəndi cəbəhəsində vuruşarkən qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlib.

***Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub***



Məmmədov Elşən Dağıstan oğlu 06.02.1996-cı ildə Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olub...

27.09.2020-ci ildə başlayan Vətən müharibəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edib və hərbi hissə qarşısında qoyulan tapşırıqların icrası zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

***Murov uğrunda gedən döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərib***



Əsgərli Tural Ələmdar oğlu 20.04.1993-cü ildə Naxçıvan MR-sı Kəngərli (Şərur) rayonu Qıvraq kəndində anadan olub.

Uşaqlıqdan hərbiyə olan istəyi 2007-ci ildə onu Heydər Əliyev adına hərbi liseyə gətirib çıxardı.

Hərbi liseyi yaxşı qiymətlərlə bitirən Tural 2010-cu ildə hərbi təhsilini artırmaq üçün Heydər Əliyev adına AAHM-nə daxil olub. 2015-ci ildə leytenant kimi Qazax rayonundakı ”N” saylı hərbi hissədə tağım komandiri kimi xidmətə başlayıb.

Daha sonra bir neçə hərbi hissələrdə xidmət edən Tural baş leytenant rütbəs aldıqdan sonra Daşkəsəndə xidmətini davam etdirməyə başlayıb. İkinci Qarabağ savaşı ”Vətən Müharibəsi” başlayan zaman Tural Murov uğrunda gedən döyüşlərə qatılıb və həmin döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərib. 01.10.2020 ci ildə artilleriya zərbəsi nəticəsində qəlpə yarası alaraq qəhrəmancasına Şəhid olub.